# Azərbaycan qaçqınlar probleminin həllində dünyaya nümunə göstərir

***Məlum olduğu kimi, BMT Baş Assambleyasının 4 dekabr 2000-ci il tarixli qətnaməsi ilə hər il 20 iyun Ümumdünya Qaçqınlar Günü kimi qeyd olunur. Nüfuzlu beynəlxalq qurumların və onların rəhbərlərinin Azərbaycanı qaçqın problemləri yaşayan ölkələr üçün örnək kimi dəyərləndirmələri nə qədər xoş olsa da, biz soydaşlarımızın məcburi köçkün qismində onilliklər ərzində çəkdiyi əziyyətləri unutmuruq.***

Azərbaycan xalqı bir əsrdə dörd dəfə ermənilər tərəfindən soyqırımına və deportasiyaya məruz qalıb, tarixi torpaqlarımıza təcavüz edilib, nəticədə yüz minlərlə soydaşımız didərginlik taleyi yaşayıb. Doxsanıncı illərdəki Qarabağ savaşı zamanı həmvətənlərimiz pənah gətirdikləri ərazilərdə çadır şəhərciklərində, zirzəmilərdə, vaqonlarda, şəraitsiz məktəb, bağça və yataqxana binalarında məskunlaşmışdılar. Azərbaycan rəhbərliyi və xalqımız o zaman məcburi köçkünləri darda qoymadı, hamısını, sözün əsl mənasında, bağrına basdı. Ulu öndər Heydər Əliyevin diqqət və qayğısı onların yaralı qəlblərinə məlhəm oldu. Dahi şəxsiyyət o zaman bu məramını aydın ifadə etmişdi: "İşğal olunmuş bütün rayonlardan didərgin düşmüş, indi qaçqın vəziyyətində, köçkün vəziyyətində yaşayan vətəndaşların problemləri bizim üçün və şəxsən mənim üçün bir nömrəli problemdir".

...Ümummilli liderin Biləsuvar qaçqın şəhərciyində gənclərin toy mərasimində iştirakı ilə bağlı şəxsən şahidi olduğum kövrək anları hələ də unuda bilmirəm. 1999-cu il idi. Toy orada tikilmiş şadlıq evində təşkil olunmuşdu. Məclisdə ulu öndər səmimi çıxış etdi, məcburi köçkünlərə ürək-dirək verdi. "Arxayın olun ki, öz kəndlərinizə qayıdacaqsınız, mütləq qayıdacaqsınız", – dedi. Sonra bəylər və gəlinlərlə birlikdə rəqs edən, onlara hədiyyələr verən ümummilli lider ürəklərdəki ümid işartılarını inam işığına döndərdi. İndi, Qarabağ alınandan sonra həmin ailələr, heç şübhəsiz, doğma yurdlarına qayıtmağa hazırlaşır və ulu öndərlə çəkilən şəkillərə baxaraq onun toyda inamla söylədiklərini ən xoş duyğularla xatırlayırlar.

Hər bir halda köçkünlük həsrət, nisgil, məhrumiyyət deməkdir. Üz tutduğun yerdə sənin üçün necə rahat şərait yaradılsa da, ta ki qayıdıb qovuşmayana qədər yurd həsrəti könlünü sızladır. Təkzibedilməz faktlar göstərir ki, Ermənistanın 1988-1992-ci illərdə planlı şəkildə həyata keçirdiyi son etnik təmizləmə siyasəti nəticəsində tarixən həmin ərazilərdə yaşamış 250 min nəfər azərbaycanlı son nəfərinədək yurd yerlərindən zorla qovulub və Azərbaycana pənah gətirib. Eyni zamanda, 1990-cı ildə Orta Asiyadan didərgin salınmış 50 min nəfər axıska türkü də Azərbaycanda sığınacaq tapıb. Birinci Qarabağ müharibəsi nəticəsində isə 1 milyonadək qardaş-bacımız ölkənin müxtəlif şəhər və rayonlarına səpələnməyə məcbur olub.

Yeri gəlmişkən, Azərbaycan bəlkə də dünyada yeganə ölkədir ki, qaçqınları xaricə miqrasiya etməyərək, elə vətəndəcə eldən-elə köçüblər. Çünki yurd didərginlərinin əvvəl-axır doğma ocaqlarına qayıdacaqlarına sarsılmaz inamı olub. Həmin vaxt Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi daimi yaşayış yerlərini tərk etmək zorunda qalmış vətəndaşlarımızın qayğılarının həlli üzrə görülən əməli işləri daha da genişləndirib. Onların müvəqqəti məskunlaşdırılması, repatriasiyası, sosial müdafiəsi təmin edilib, dolanacaqlarına hər cür dəstək göstərilib.

Yeni əsrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial inkişaf xətti, o cümlədən məcburi köçkünlərlə iş üzrə dövlət siyasəti uğurla davam etdirilib. Bu kateqoriyadan olan vətəndaşların yaşayış şəraiti yaxşılaşdırılıb, onların məşğulluğunun artırılması istiqamətində mühüm işlər görülüb. Sonrakı dövrdə Prezidentin təşəbbüsü və rəhbərliyi ilə xüsusi Dövlət proqramları qəbul edilib və mühüm tədbirlər həyata keçirilib. Məhz bunun nəticəsidir ki, 103 yeni qəsəbə salınıb, 300 mindən artıq qaçqın və məcburi köçkün mənzillə təmin edilib. Bir neçə il öncə Bakı, Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində onlar üçün 5 yeni və müasir yaşayış kompleksi istifadəyə verilib. Görülən tədbirlərin nəticəsi olaraq, məcburi köçkünlər arasında yoxsulluq həddi altı dəfədən çox azalıb. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva da didərginlərin sosial problemlərinin həllinə ardıcıl şəkildə xüsusi diqqət və qayğı göstərib.

Soydaşlarımızın geri dönüşlə bağlı zənninin yanılmadığına inişil növbəti erməni təxribatına cavab olaraq başlanan Vətən müharibəsinin Qələbə ilə başa çatması canlı sübutdur. Erməni işğalçıları torpaqlarımızdan kürünüb atıldılar. Beləliklə də, köçkünlərin üstündən ürəkağrıdan "məcburi köçkün" adı birdəfəlik götürüldü. Həmin vaxt Prezident İlham Əliyevdən müsahibə alan Türkiyənin NTV kanalının müxbiri Suqovuşandan olan bir vətəndaşımızın reportajçılara uca səslə "Mən artıq köçkün deyiləm! Prezidentlə görüşsəniz, sonsuz sevgi və sayğılarımı çatdırın!" – deməsini xatırlatdı. Dövlət başçısı isə cavabında bildirdi ki, bununla bağlı minlərlə məktub alır və oxuduqca sevincdən gözləri yaşarır.

Hazırda Qarabağda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır ki, tezliklə "Böyük Qayıdış" təmin edilsin. Otuz ilə qədər Vətən həsrəti çəkən insanların işğaldan azad edilmiş ərazilərə könüllülük, təhlükəsizlik və layiqli həyat şəraitinə təminat prinsipləri əsasında qayıdışına ciddi hazırlıq görülür. Dövlətimizin başçısının işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin koordinasiyası məqsədilə yaratdığı əlaqələndirmə qərargahı zəruri işlər aparır.



***Azərbaycan Prezidentinin ölkədəki bütün qaçqın və məcburi köçkünlər, o cümlədən beynəlxalq humanitar təşkilatlar üçün gördüyü işlər dünyanın oxşar problemlə qarşılaşan əksər ölkələri üçün nümunədir... Azərbaycan fəxr edə bilər ki, heç bir beynəlxalq humanitar yardıma ehtiyacı yoxdur. Mən bunu yüksək qiymətləndirirəm. Bu sahəyə qoyulmuş sərmayənin həcminə görə Azərbaycan dünyada birinci yerdədir.***

***Antonio QUTERREŞ, BMT-nin Baş katibi***

Bir müddət öncə Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi olub. Tezliklə pilot qayıdış prosesi çərçivəsində köçürülmə başlanacaq. 200 ailəlik evlər istifadəyə tam hazırdır. İnfrastruktur bərpa olunduqca, ərazilər minalardan təmizləndikcə bütün keçmiş qaçqın və məcburi köçkünlər ata ocaqlarına qovuşacaqlar. Hazırda Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlıq çərçivəsində "Azərbaycanda bərpa və sülh quruculuğu üçün tədqiqat, təhlil və potensialın gücləndirilməsi" adlı qrant layihəsi gerçəkləşdirilir ki, bu da yaxın gələcəkdə öz yurd-yuvalarına qayıdacaq məcburi köçkünlərin məşğulluq imkanlarının artırılmasına müsbət təsir göstərəcək. ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Sosial İştiraka Dəstək (SES) layihəsi də qayıdış ərəfəsində məcburi köçkünlərin müəyyən ehtiyaclarını qarşılamaq amalına xidmət edir. Artıq ölkəmizdə məcburi köçkünlər üçün yaşayış sahələri yalnız işğaldan azad edilmiş ərazilərdə inşa olunur və qarşıdakı illərdə bu sahədə işlər daha da sürətləndiriləcək.

Beynəlxalq hüquqa əsasən, qaçqınlar irqi əlamətinə, milliyyətinə, dini etiqadına, müəyyən sosial qrupa mənsubluğuna və ya siyasi əqidəsinə görə təqib edilən və qorxudan doğma ünvanına qayıda bilməyən şəxslərdir. Onlar əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər statusu ilə təfsir olunurlar. Təəssüf ki, bu gün dünyanın bir çox yerlərində adi güzəranı belə olmayan böyük qaçqınlar ordusu mövcuddur.

BMT-nin açıqlamasına görə, Rusiya-Ukrayna müharibəsinə qədər dünyada 89,3 milyon insan qaçqınlıq həyatı yaşayırdı. Bu sayın Ukrayna savaşı səbəbindən 100 milyonu ötdüyü təxmin olunur. Uzunmüddətli nisbi sabitlikdən sonra, qarışıqlığın artdığı son onilliklərdə qaçqın sayı iki dəfədən çox yüksəlib. Rusiya-Ukrayna savaşına qədər dünya xəritəsində əsas "qaynar nöqtə" Suriya idi. Bütün qaçqınların yarıya qədəri bu ölkədən və daha bir neçə yerdən idi. Əfqanıstan, Cənubi Sudan və Myanma bu qəbildəndir. İllik hesabatda miqyaslarına görə, dünyada ikinci böhran sayılan yerdəyişmə ilə bağlı Venesuelanın adı çəkilir. Təxmini məlumata görə, 14 milyondan artıq ukraynalı ev-eşiyindən didərgin düşüb ki, onların da 6 milyona qədəri ölkədən çıxanlardır. Qalan 8 milyon köçkündən hələlik yalnız 2,7 milyonu rəsmi status alıb. Ümumiyyətlə, dünyada öz ölkəsinin daxilində yerdəyişməyə məcbur olan vətəndaşlar qaçqınların tam sayının yarıdan çoxunu təşkil edir – 53 milyon adam daxili qaçqınlıq əzabı çəkir.

BMT-nin Qaçqınların işləri üzrə ali komissarı Filippo Qrandi: "Qaçqın sayının 100 milyonu ötməsi dəhşətli rəqəmdir. Həyəcan doğuran bu rekord dünyanı sayıq olmağa səsləməlidir. Dağıdıcı münaqişələrin qarşısı alınmalı, insan təqibləri dayandırılmalıdır ki, günahsız sakinlər doğma evlərindən qaçmağa məcbur olmasınlar".

Qərbi Afrika, Mərkəzi Aralıq dənizi, digər qeyri-qanuni quru və dəniz marşrutları ilə miqrant axını səngimək bilmir. Suriya münaqişəsi ilə əlaqədar qaçqınların sayı 5 milyondan artıqdır. Onlar qürbətə üz tutmaqla həyati təhlükələrdən canlarını qurtarmağa çalışırlar. Avropa Birliyinin müvafiq sorğu sayına görə rekordçu ölkəsi Almaniyadır. "Qaçqınlıq marşrutu"nun ən böyük dayanacaq yeri Türkiyədir. Bu ölkə 3 milyon 800 min qaçqına evsahibliyi edir. Türkiyədən fərqli olaraq, bəzi ölkələrdə suriyalı qaçqınlara münasibətdə miqrasiya qaydalarının sərtləşdirilməsi xəbərləri yayılır. Hələ bir neçə il əvvəl İtaliyanın sabiq Baş naziri Matteo Renzi Avropada miqrant böhranına sərt reaksiya vermişdi: "Əgər 40 min insan məsələsində razılığa gələ bilmirsinizsə, özünüzü avropalı kimi təqdim etməyə haqqınız yoxdur. Əgər sizin Avropa idealınız budursa, özünüzə saxlayın".

BMT-nin Baş katibi seçilənə qədər, 2005-2015-ci illərdə BMT-nin Qaçqınların işləri üzrə ali komissarı vəzifəsində çalışmış Antonio Qutteresin qənaətinə görə, Rusiya-Ukrayna müharibəsi inkişaf etməkdə olan ölkələrə qarşı səssiz hücuma keçib. Hazırkı böhran dünya əhalisinin beşdə-birindən çoxunu, təxminən 1,7 milyard insanı onilliklərlə görünməmiş miqyasda yoxsulluğa, məhrumiyyət və aclığa sürükləyə, nəticə etibarilə qaçqınlıq problemini daha da şaxələndirə bilər.

Ötən həftə keçirilmiş Qlobal Bakı Forumunda da bu məsələ nəzərdən qaçırılmayıb. Yaxın Şərqdə mövcud vəziyyətdən narahatlıq ifadə olunub. Bildirilib ki, Suriyada, Yəməndə vətəndaş müharibələri təhlükəsizliyə ciddi ziyan vurub. Eləcə də hazırda Talibanın hakim olduğu Əfqanıstanda insan hüquqları kobud şəkildə pozulur. Miqrantların sayının artması qlobal dünya nizamına əsl təhdiddir. Avropa İttifaqının bu qitənin ölkələrinə qaçqınlara təcili yardım üçün ayırdığı vəsaitlər də yetərincə deyil. Mövcud münaqişələri həll etməklə, mübahisələrə son qoymaqla qaçqın və miqrant problemlərini azaltmaq olar. Cənab İlham Əliyev forumda gözlənilən ərzaq çatışmazlığı və qaçqınlıqla bağlı artan qanunsuz miqrasiya probleminə dair fikirlərini açıq şəkildə bildirərək deyib ki, beynəlxalq təşkilatlar və aparıcı ölkələr miqrantların potensial artımı ilə bağlı vəziyyətin öhdəsindən gəlməlidirlər.

Azərbaycan dünyada sülhsevər, tolerant, multikultural dəyərlərə yüksək qiymət verən ölkələr sırasındadır. Dövlətimiz bütün dünya ölkələrinə milli və dini ayrı-seçkiliyə son qoymaq, müharibələr aparmaqla nahaq qanlar tökülməsini dayandırmaq barədə mühüm mesajlar verir. Özünü insan haqlarının carçısı hesab edən, əslində isə ayrı-ayrı ölkələrdə münaqişələri körükləyən aparıcı dövlətləri ədalətə və humanizmə dəvət edir. Əlbəttə, belə olsa, dünyada qaçqın problemi də yaşanmaz.

*Əli NƏCƏFXANLI, "Xalq qəzeti"*